# Avstriya Milli Kitabxanası və
# M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
# arasında qarşılıqlı əməkdaşlıq haqqında
# Memorandum

Avstriya Milli Kitabxanası və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Sonradan "Tərəflər" adlandırılacaq:

Kitabxanalar arasında əməkdaşlığı inkişaf etdirmək, həmçinin elm və mədəniyyət sahələrində, informasiya mübadiləsi sahəsində əməkdaşlıq üçün şərait yaratmağı arzulayaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## MADDƏ 1

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

## MADDƏ 2

Tərəflər kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- məlumat bazalarının idarə edilməsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası texnologiyaları;
- kitabxana arxivlərinin keyfiyyətli təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsi aparılması.

**MADDƏ 3**

Əməkdaşlıq haqqında Memorandum 5 il müddətinəetibarlı olacaq və bu Memorandumun müddətinin bitməsinə 6 ay qalmış digər Tərəfin Memorandumun bitməsi barədə yazılı məlumat olmazsa, Əməkdaşlıq haqqında Memorandum növbəti 5 il müddətinə uzadılacaqdır.

**MADDƏ 4**

Əməkdaşlıq haqqında Memoranduma əlavə və dəyişikliklərin edilməsi zərurəti yarandığı halda Tərəflər bir-birini qabaqcadan məlumatlandırmalıdırlar və həmin əlavə və dəyişikliklər birgə razılıq əsasında həll olunur. Tərəflərdən biri Əməkdaşlıq haqqında Memorandumun qüvvədən düşməsi haqqında digər Tərəfə 3 ay əvvəl yazılı bildiriş göndərərək onun qüvvədən düşdüyünü bəyan edə bilər.

**MADDƏ 5**

Əməkdaşlıq haqqında Memorandum imzalandığı andan qüvvəyə minir. Əməkdaşlıq haqqında Memorandum Vyana və Bakı şəhərlərində 2019-cu il 20 noyabr tarixində ingilis dilində imzalanmışdır.

**Avstriya Milli Kitabxanası adından**

**Yohanna Raxinger**
**Baş Direktor**

**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası adından**

**Prof.Kərim Tahirov**
**Direktor**